# Azərbaycan Respublikasında İslam həmrəyliyinin ideoloji-siyasi əsasları haqqında

**Esmeralda Həsənova**
*Şərqşünaslıq İnstitutunun Din və İctimai fikir tarixi şöbəsinin müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru*

Məlum olduğu kimi Azərbaycan Respublikası dünyəvi dövlətdir. Eyni zamanda, Azərbaycan müsəlman ölkəsidir, çünki əhalisinin 90% müsəlmanlardan ibarətdir. Bu ölkədə eyni zamanda başqa dini icmalar, etnoslar, konfessiyalar yaşayır və fəaliyyət göstərirlər. Məsələn, xristian, pravoslav, protestantlar, lüteranlar, katoliklər, yəhudilər, dağ yəhudiləri Azərbaycanda rahat şəraitdə fəaliyyət göstərirlər. Bu ölkədəki hökm sürən dinlərin tolerantlığı, dözümlülük, çoxmillətlilik və çox mədəniyyətlilik amilinin uğurla tənzimlənməsi bütün dinlərə rahatlıq və bərabərlik şəraitini qoruyub təmin edir. Azərbaycanın Qərb və Şərq mədəniyyətlərinin uzlaşdığı geosiyasi vəziyyəti bu məkanın din və mədəniyyət siyasətini və onları doğru düzgün aparmağa şərait yaradır. Burada mövcud olan dünyəvilik isə dini fəaliyyətlərin xüsusiyyətini, təzahürlərini, onların sərhədlərini müəyyən edir.

Ərəb mədəniyyətinin məhsulu olan səmavi, dinamik, passionar bir din kimi İslam Azərbaycanda uzun əsrlər boyu yayılıb, fəaliyyət göstərmişdi və göstərməkdə davam edir. Nəzərə alsaq ki, ilk müsəlman məscidi Şamaxıda 743-cü ildə tikilib qurulmuşdu, deyə bilərik islam Azərbaycanda artıq VIII əsrdən başlayaraq yayılmağa başlamışdı. Burada o ümmət şüurunun milli şüuruyla uzlaşdıraraq milli-mənəvi, ideoloji, həyat tərzi, düşüncə və milli mentalitetin tərkib hissəsi kimi özünü göstərmişdi. Beş üsul (prinsip) – touhid, ədl, məad, nübuvvət və imamət və dörd normativləri – oruc, namaz, zəkat və həcci ehtiva edən və həyata keçirməyi tələb edən bu din günümüzdə də yaşayır, fəaliyyət göstərir, yayılır və inkişaf edir. Bu dinin müqəddəs kitabı “Quran” 114 surədən, çoxlu ayələrdən ibarətdir. Milli şüurun din şüuruyla uzlaşması haqda Quranın “Hücrətlər” surəsinin 13-cü ayəsində yazılan fikirlər isbat edir. Burada xalq, qəbilə, millət təbirləri din mənasını daşıyır. “Millətun” tabiri qədim arami dilində din mənasında işlənirdi (Bernard Levisin fikrinə görə).

Eyni zamanda, qeyd olduğu kimi, Azərbaycan Respublikası dünyəvi dövlətdir. Dünyəvi dövlət, respublika quruluşu Azərbaycanda XX əsrdə üç dəfə yaranmışdı. Birinci dünyəvi dövləti Azərbaycan Xalq Cümhuriyyəti adlanırdı. Bu dövlətin yaranması Yaxın və Uzaq Şərqdə ilk və mühüm bir hadisə idi. Hətta onun təsiri ilə 1923-cü ildə Türkiyə Respublikası bir dünyəvi dövlət kimi yarandı. İslam həmrəyliyinin ilk dəfə təzahürünü Osmanlı İslam ordusunun Azərbaycana yardım üçün dəvəti oldu. Bu ordudan şimaldan gələn təhlükəyə və erməni daşnaklarının azərbaycanlı müsəlmanına edilən soyqırıma qarşı istifadə idi. Azərbaycan Xalq Cümhuriyyəti dünyəviliyi dini dövlətdən ayırmaqda gördü, amma qəbul etdiyi məşhur “Bəyanatda” (“Deklarasiyada”) bu haqda bəhs etməmişdi. Görünür xalqı xüsusi ilə müsəlmanları qorxutmamaq üçün belə davranmışdı. Ona görə din işləri ilə hökümət özü məşğul olurdu. Hətta din xadimlərinin – imam, axundların, müftilərin, şeyxülislamın aylıq maaşları dövlət tərəfindən ödənilirdi.

İkinci dünyəvi dövlət Azərbaycan Sovet Sosialist Respublikası kimi yarandı və 70 il ömür sürdü. Bu dövrdə də Azərbaycanda istər islam dini, istərsə də başqa dinlər sərbəst fəaliyyət göstərirdilər. Amma dövlət Kommunist Partiyasının rəhbərliyi altında fəaliyyət göstərdiyinə görə, onun da ateist olduğuna görə partiya üzvlərinin dini fəaliyyətinə müəyyən məhdudiyyətlər mövcud idi. Amma xalq kütlələri öz dini görüşlərini həyata keçirmək imkanına malik idilər. Bu işlər vicdan azadlığı prinsipinə əsaslanırdı. Buna Sovet Azərbaycanında 67 məscidin fəaliyyət göstərdiyi dəlalət edir. Amma din işləri dövlət işlərindən ayrı idi. Hökumət nəzdində xüsusi “Din komitəsi” fəaliyyət göstərirdi. Bu bir növ din işlərini nəzərdə tutur, tənzimləyici rol oynayırdı. İstər dini, istərsə də milli həmrəylik məsələləri ilə xüsusi “Xalqlar dostluğu və həmrəyliyi komitəsi” məşqul olurdu. Bu komitənin başında vaxtı ilə Tixonov, Mirzə İbrahimov və başqa yazıçılar dururdu. Mərkəzi isə Moskvada yerləşən “Dostluq evi” (“Dom drujbı”) idi. SSRİ-nin demontaj olduğundan sonra (XX əsrin 90-cı illərində), müstəqil Azərbaycan üçüncü dünyəvi

dövlət kimi özünü elan etdi. Respublikanın Konstitusiyası istər islam dininin, istər digər dinlərin sərbəst və bərabərlik hüququnda fəaliyyətinin qarantı kimi özünü təqdim etdi. Eyni zamanda xalqın, insanların vicdan azadlığını təmin etdi. Bütün bu işləri təmin etmək, nəzarətdə saxlamaq üçün Din işləri üzrə Dövlət Qurumunu təsis etdi. Qurumun yaranması haqda sərəncamı Azərbaycan Respublikasının Prezidenti, mərhum Heydər Əliyev şəxsən imzalamışdı. 2001-ci ildə.

Dünyəvilik prinsipi müasir müstəqil Azərbaycanın istər ölkə daxilində, istərsə də beynəlxalq aləmdə fəaliyyət göstərən MDB ölkələrinə, xaricdə mövcud olan İslam Əməkdaşlığı Təşkilatı (keçmiş İslam Konfransı Təşkilatına), İSESKO, həmçinin başqa müsəlman ölkələrini birləşdirən digər qurumların üzvü kimi seçilərək İslam aləmi ilə qarşılıqlı əlaqələr qurmuş, onlarla həmrəylik münasibətləri qurmuşdu. Bu münasibətlərin səviyyəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2017-ci ilinin Azərbaycanda "İslam həmrəyliyi ili" kimi elan olunmasına imkan yaratmışdı. İslam və digər konfessiyalar arasında həmrəylik istiqamətində istər ölkə daxilində və istərsədə xaricində tədbirlər keçirilməsinə sərəncam verilib (Bakı şəhəri 10 yanvar 2017-ci il)

İslam həmrəyliyinin əsaslarını, siyasətini, prinsipini konsepsiyasını dövlətin rəsmi ideologiyası olan azərbaycançılıq təşkil edir. Bu ideologiyanın tərifini, mahiyyətini, önəmini Azərbaycan Respublikasının Prezidenti mərhum Heydər Əliyev vermişdi. O, 10 noyabrın 2001-ci ildə Dünya azərbaycanlılarının Qurultayında belə demişdi: "Azərbaycançılığı öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafı olmasıdır". Nəzərə alsaq ki, azərbaycanlıların milli-mənəvi dəyərlərinin tərkib hissəsinə İslam dini dəyərləri də daxildir, bu sözlər İslam dininə də aiddir, onu ehtiva edir.

Bu ideologiyanın tələblərinə görə dövlətin Konstitusiyasında deyilir ki, "Azərbaycan Respublikasında din dövlətdən ayrıdır", "Bütün dini etiqadlar qanun qarşısında bərabərdir", "İnsan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsipinə zidd olan dinlərin dini cərəyanlarının yayılması və təbliği qadağandır", "İrqi, milli, dini, sosial ədalətin və düşmənçilik oyadan təşviqat və təbliği qadağandır. Bu qanunların Azərbaycan Respublikasında uğurla həyata keçirməsi ölkədə siyasi sabitliyin bərqərar olmasında böyük rol oynayır.

Azərbaycanda dini həmrəyliyinin bərqərar olması paytaxt Bakı şəhərində yerləşən və fəaliyyət göstərən Qafqaz Müsəlmanları İdarəsinin fəaliyyəti ilə də bağlıdır. Məlum olduğu kimi idarənin başında Şeyxülislam professor Allahşükür Paşazadə durur. Fəxr etmək lazımdır ki, bu İdarə bütün Qafqaz müsəlmanlarının dini məsələləri ilə məşğul olur. Eyni zamanda başqa dinlərin rəhbərləri ilə, kilsələri ilə, sinaqoqları ilə həmrəylik, qarşılıqlı hörmət ruhunda öz vəzifəsini həyata keçirdir. Bu qurum Azərbaycanda dinin siyasiləşməsinə imkan vermir. Məzhəblər arasında ixtilaf və gərginliyə yol vermir. Əksinə olaraq onların arasında, məsələn sünni-şiə məzhəblərinin "Vəhdət namazları" təşkilində böyük rol oynayır. Bu məzhəblərin nümayəndələrindən İdarə heyətinin tərkibinə daxil edib, balanslı siyasəti təmin edir. Bundan başqa İdarə Azərbaycan Respublikasının Prezidentlik İnstitutu ilə ahənglik, qarşılıqlı anlayış və dəstək ruhunda fəaliyyət göstərir və dünya islam həmrəyliyinin təmin olmasında iştirak edir.

İslam həmrəyliyi öz ifadəsini istər ölkə daxilində, istərsə də dünya müsəlmanlarının həyatında baş vermiş fəlakətlərdə - zəlzələ, su daşqını hadisələrində, təhsil ocaqlarının bərpası, quruluşu və s. ilkin yardım göstərməkdə özünü göstərir. Burada İslam təəssübkeşliyi nümayiş etdirilir.


**Esmeralda Hasanova**

**On the ideological and political foundations of Islamic solidarity in the Republic of Azerbaijan**

**Summary**

This article discusses the ideological and political foundations of Islamic solidarity in Azerbaijan Republic and affirms that Azerbaijanism which is the official ideology forms these foundations. There is also a subtlety, tolerance, multinationality and multicultural factors, providing comfort and equality for all the religious.